*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 97-102*

https://doi.org/10.62837/2024.10.97

**FİDAN ELÇİN qızı ƏHMƏDZADƏ**
*SABAH qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**E-mail:** ehmedzadefidan9@gmail.com

# ŞAGİRDLƏRİN NİTQ MƏDƏNİYYƏTLƏRİNİN İNKİŞAFINDA FƏAL TƏLİM METODLARINDAN İSTİFADƏ

Bir-birinə yaxın, eyni zamanda da fərqli anlayışlar olan dil və nitq insanın ünsiyyət və düşüncə prosesində əhəmiyyətli rola malikdir. Bəşər tarixində insan dühasının ən ecazkar kəşflərindən biri olan dil təkcə hiss və düşüncələrin ifadə vasitəsi deyil, həmçinin mədəniyyətin formalaşmasında mühüm rol oynayan amillərdən biridir. Milli mədəniyyətin mühüm tərkib hissələrindən biri olan nitq mədəniyyəti dilin norma və qaydalarına uyğun olaraq fikrin aydın, düzgün və səlis ifadə bacarığını tələb edir. Deməli, dil, sadəcə, söz və ifadələr toplusu deyil, həm də mədəniyyətin inkişafına şərait yaradan güclü bir vasitədir.

Düzgün danışıq mədəniyyəti, hər şeydən əvvəl insanın mədəniyyət göstəricisi və bir şəxs kimi ümumi inkişaf səviyyəsinin nümayişi olmaqla yanaşı, eyni zamanda o şəxsin təmsil etdiyi xalqın mədəni dəyərindən, həmçinin bəşəriyyətin mənəvi irsinin necə qorunub gələcək nəsillərə çatdırılmasından xəbər verir. Deyə bilərik ki, dil daşıyıcılarının kompakt ünsiyyət qurduğu ərazinin tarixi və onların təmsil etdiyi xalqın mənəvi sərvəti ilə bağlı olan nitq mədəniyyəti hər şeydən öncə ana dilinə sevgi və hörmətin təcəssümüdür. [2]

Nitq mədəniyyəti, özlüyündə hər bir xalqın, toplumun dil, ədəbiyyat və kommunikasiya bacarıqları ilə sıx bağlı olan əsas elementlərdən biridir. Azərbaycan dili və ədəbiyyat dərsləri, şagirdlərin nitq bacarıqlarını formalaşdırmaq üçün mühüm bir zəmin yaradır. Bu dərslərdə fəal təlim üsullarının tətbiqi şagirdlərin sadəcə bilik əldə etməsini yox, eyni zamanda onların nitq vərdişlərini formalaşdırmaq, yaradıcı düşüncələrini inkişaf etdirmək və müstəqil fikir irəli sürmək bacarıqlarını gücləndirmək məqsədi daşıyır.

Bilirik ki, fəal təlim metodları şagirdlərin dərsdə aktiv iştirakını təmin edən ən əlverişli müasir yanaşmaların məcmusudur. Bu metodlar interaktiv mühitdə əməkdaşlıq və problemin həllinə yönəlmiş fəaliyyəti əhatə edir. Dərs prosesində onların tətbiqi, şagirdlərə öz fikirlərini sərbəst şəkildə ifadə etmək, müzakirələrdə iştirak etmək və yaradıcı yanaşmalar əsasında nitq mədəniyyətini inkişaf etdirmək imkanı verir.

Nitq inkişafı üzrə iş inteqrativ xarakter daşıyır. Bu prosesdə şagirdlərdə ədəbi dilin norma və qaydalarına uyğun nitq fəaliyyətinə həvəs yaratmaq əsas amil kimi meydana çıxır. Bu səbəbdən nitqin inkişafı üzrə işin təşkilində üç istiqamət nəzərə alınmalıdır:

- Nitq fəaliyyəti növlərinin (dinləyib-anlama, danışma, oxu, yazı) qarşılıqlı əlaqəsinin nəzərə alınması;
- Dialoji nitq istiqamətinin nəzərə alınması;
- Monoloji nitq istiqamətinin nəzərə alınması. [5, s.175]

Nitq inkişafı üzrə fəaliyyətin həyata keçirilməsində aşağıdakı vəzifələrin yerinə yetirilməsi zəruri hesab olunur:

- Dinləmə və anlama fəaliyyətinin təkmilləşdirilməsi;
- Oxu vərdişinin yaradılması və inkişaf etdirilməsi;
- Yazı bacarığının formalaşdırılması;
- Söhbətə qatılma və ünsiyyət qurma bacarığının aşılanması;
- Fikri dəqiq, başadüşülən səviyyədə ifadə etmək, bacarığının yaradılması.

Bu vəzifələr həm şagirdlərin müəllimlə, həm də öz aralarında daha sıx ünsiyyət qurmasını şərtləndirir. Həmçinin nitq inkişafı üzrə fəaliyyətin interaktiv təlim metodlarından istifadə etməklə daha səmərəli təşkil edilməsini tələb edir.

Fəal təlim metodları əsasında təşkil olunmuş dərs üç əsas mərhələdən keçir:

1. Düşünməyə yönəltmə mərhələsi;
2. Dərketmə mərhələsi;
3. Düşünmə mərhələsi. [5, s.175-176]

Yuxarıdakı üç mərhələnin hər biri bir-birilə sıx bağlıdır və şagirdlərin nitq bacarıqlarının inkişafında mühüm rola malikdir. Dərs prosesini fəal/interaktiv təlim metodları ilə qurmaq istəyən hər bir müəllim işinə ciddi və peşəkar yanaşmalıdır. Onu da qeyd etməliyik ki, şagirdlərin nitq mədəniyyətinin yüksəldilməsi işi təkcə Azərbaycan dili və ədəbiyyat dərslərində deyil, eyni zamanda orta ümumtəhsil məktəblərində tədris olunan digər fənlərin öyrədilməsi prosesində də həyata keçirilməlidir.

Görkəmli tədris texnoloqu və metodist Nabat Cəfərovanın fikrincə, nitqin inkişafı üzrə işin təşkili prosesində tətbiq edilən fəal/interaktiv təlim üsul və metodları müxtəlifdir. Alimin sadaladığı həmin metodlardan bir neçəsinə nəzər salaq:

**Əqli hücum.** Bu metoddan nitq inkişafını təşviq etmək üçün fərqli fikirlər yarandıqda istifadə edilir. Bu vəziyyətdə şagird düşünür, yoldaşlarının fikirləri ilə razılaşmadıqda isə öz mövqeyini bildirir. Metoddan istifadə şagirdin öz düşüncəsini rahat ifadə etməsinə şərait yaradır. Bəzən bu fikirlər qeyri-müəyyən olsa da, nitq bacarıqlarının təkmilləşməsinə kömək edir.

**Rollu oyunlar.** Bu üsul vasitəsilə oxunan mətnə aid rollu oyunlar təşkil edilir ki, bu da şagirdlərin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir və onların nitq bacarıqlarını təkmilləşdirir. Bu yanaşma eyni zamanda, şagirdlərə ünsiyyət qurma vərdişlərini də aşılayır. Onlar tədris materialına uyğun olaraq qısa səhnəciklər qurub ifa edir və öz fikirlərini ifadə etmə bacarığını gücləndirirlər.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 97-102*

**Diskussiya.** Bu metod, həm müəllimlər, həm də şagirdlər üçün əhəmiyyətli bir tədris üsuludur, çünki şagirdlərin mövzuya dair fikirlərini ifadə etməsinə şərait yaradır. Müzakirə zamanı şagirdlər faktlara və hadisələrə münasibət bildirmək, onları təhlil edərək müzakirə aparmaq imkanı qazanırlar. Diskussiya metodu şagirdlərin nitq bacarığını inkişaf etdirməyə xüsusi töhfə verir. Bu prosesdə şagirdlər düşüncələrini açıq ifadə etməyə, fikirlərini əsaslandırmağa və məntiqli şəkildə təqdim etməyə çalışırlar. Müzakirələr zamanı qarşılıqlı ünsiyyət şagirdlərin sərbəst danışıq qabiliyyətini, lüğət ehtiyyatını və ifadə zənginliyini artırır. Eyni zamanda, şagirdlər müxtəlif mövzular üzərində düşünərək və digərlərinin fikirlərini dinləyərək öz nitqində daha məntiqli və ardıcıl cümlələr qurmağı öyrənirlər.

**Debat.** Bu metod, şagirdlərin düşüncə tərzini inkişaf etdirən və onları arqumentlər vasitəsilə öz fikirlərini müdafiə etməyə yönəldən bir prosesdir. Bu metodun tətbiqi zamanı hər bir tərəf irəli sürdüyü fikirləri əsaslandırır və digər iki tərəfi öz arqumentləri ilə inandırmağa çalışır. Debat vasitəsilə şagirdlər öz ideyalarını müzakirə etməklə yanaşı, fərqli fikirlərlə qarşılaşır, mövzulara obyektiv yanaşmağı öyrənir və müxtəlif arqumentləri tənqidi qiymətləndirə bilirlər. Debat metodu, nitq inkişafı baxımından da olduqca faydalıdır. Şagirdlər debat prosesində öz fikirlərini səlis və aydın şəkildə ifadə etməyi, arqumentlərini məntiqli şəkildə qurmağı öyrənirlər. Bu metod şagirdlərin sərbəst fikir ifadə etmə bacarıqlarını gücləndirir, onları dinləyicilərin qarşısında inamlı danışmağa təşviq edir və auditoriya önündə öz fikirlərini əsaslandırma vərdişini formalaşdırır. Bu isə onlarda təkcə nitq deyil, həm də tənqidi düşüncə və inandırıcı danışıq qabiliyyətlərini inkişaf etdirir.

**Venn diaqramı.** Venn diaqramı metodu, mətni analiz və müqayisə etmək üçün tətbiq olunan bir üsuldur. O, şagirdlərə verilən mətnlərin fərqli və ortaq cəhətlərini müəyyənləşdirmək imkanı yaradır. Bu proses şagirdlərin mətn üzərində dərin düşünmə və müqayisə bacarıqlarını inkişaf etdirir, eyni zamanda onların tənqidi düşünmə və nitq bacarıqlarını gücləndirir. Bundan əlavə şagirdlərin öz fikir və müşahidələrini səlis şəkildə ifadə etməyə kömək edir. Mətndəki oxşar və fərqli cəhətləri müəyyən edərkən şagirdlər analitik düşüncə ilə yanaşı, öz fikirlərini məntiqli şəkildə quraraq aydın ifadə etməyə çalışırlar. Bu da onların həm şifahi, həm də yazılı nitq bacarıqlarının inkişafına səbəb olur. Şagirdlər mətni analiz edərkən əsas ideyaları seçib ümumiləşdirmək, onları düzgün qaydada təqdim etmək və öz sözləri ilə ifadə etmək bacarıqlarını gücləndirirlər.

**Söz assosiasiyası.** Söz assosiasiyası metodu, şagirdlərin təlim prosesində fəal iştirakını təmin etmək üçün istifadə olunan interaktiv bir oyun üsuludur. Bu metod vasitəsilə şagirdlər təfəkkür və yaradıcılıq bacarıqlarını inkişaf etdirir, eyni zamanda yeni sözlərin mənimsənilməsinə töhfə verir. Şagirdlərə bir söz verilir və bu sözlə əlaqəli yeni sözlər düşünmələri tələb olunur. Məsələn, "alma" sözü verildikdə onun son hecasına başqa heca qoşmaqla yeni söz düzəltmək və belə davam edərək müstəqil söz zənciri düzəltmək tələb olunur: alma-mala-lalə-ləkə-kəsə-sədа-daha-

hazır və s. Bu üsul nitqin inkişafında mühüm rol oynayır. İlk növbədə, şagirdlərin lüğət ehtiyatı zənginləşir, çünki yeni sözlər öyrənirlər və onları gündəlik danışıqda tətbiq edirlər. Həmçinin şagirdlər məntiqi düşünmə qabiliyyətlərini inkişaf etdirirlər.

Bu metodlardan əlavə, Azərbaycan dili və ədəbiyyat dərslərində karusel, dəyirmi masa, ideyalar xalısı, qərarlar ağacı, qar topası üsulu və s. üsullardan istifadə olunur.

Azərbaycan dili və ədəbiyyat dərslərində şagirdlərin nitq inkişafında fəal təlim metodlarının tətbiqinin bir neçə üstün cəhəti var:

- Şagird mərkəzli öyrənmə;
- Nitq bacarıqlarının inkişafı;
- Yaradıcı və tənqidi düşüncə;
- Əməkdaşlıq və kommunikasiya;
- Həvəsləndirmə.

Azərbaycan dili və ədəbiyyat dərslərində şagirdlərin nitq inkişafında fəal təlim metodlarının tətbiqinin bəzi mənfi cəhətləri nəzərə çarpır:

- Zaman məhdudiyyəti;
- Dərs planlaşdırılmasının çətinliyi;
- Müəllim nəzarətinin yetərsizliyi;
- Obyektiv qiymətləndirmə problemi;
- İntizamsızlıq problemləri.

Beləliklə, deyilənlərdən belə nəticə çıxarırıq ki, müasir təhsil sistemində nitq bacarıqlarının inkişafı, şagirdlərin akademik və sosial həyatda uğurlu olmaları üçün mühüm əhəmiyyət kəsb edir. Fəal təlim metodları şagirdlərin müstəqil düşünmə, ünsiyyət və əməkdaşlıq bacarıqlarını artırmağa yönəldilmiş yanaşma olduğundan onlarda nitq bacarıqlarının inkişaf etdirilməsi prosesinə də cəlb oluna bilər. Belə ki, nitqin inkişafı təkcə şagirdlərin dil biliklərinin artması ilə deyil, eyni zamanda onların düşündüklərini ifadə etmə bacarıqlarının yüksəldilməsi ilə də bağlıdır. Bu səbəbdən həm Azərbaycan dili və ədəbiyyat dərslərində, həm də digər dərslərdə fəal təlim metodlarının tətbiqi şagirdlərin nitq qabiliyyətlərinin inkişafına müsbət təsir göstərə bilər.

Fikrimizcə, şagirdlərin nitq qabiliyyətinin yüksəldilməsi üçün dərs zamanı fəal təlim metodlarından istifadə şagirdlərin sosial və akademik uğurlarını təmin etmək üçün də əhəmiyyətlidir.

## ƏDƏBİYYAT

1. İsmayılova Şərəf. Nitq mədəniyyətinin mahiyyəti, inkişafı və təbliği // https://www.kaspi.az/az/nitq-medeniyyetinin-mahiyyeti-inkisafi-ve-teblii
2. Muradlı Tavat. Dil və mədəniyyət // https://tehsiljurnali.az/sagxeberler/2489-dil-v-mdniyyt.html
3. Axundov Ağamusa. Dil və mədəniyyət. Bakı, Yazıçı, 1992, - 192 s.
4. Dil mədəniyyəti, Bakı, Elm, 1979, - 156 s.

5. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) I-XI siniflər, Bakı, 2012, - 136 s.
6. Cəfərova Nabat. Nitq inkişafı üzrə işin metodikası, Bakı, ADPU-nəş., 2018, - 234 s.

**F.E.Əhmədzadə**

**Şagirdlərin nitq mədəniyyətlərinin inkişaflnda fəal təlim metodlarından istifadə**

**Xülasə**

Məqalə Azərbaycan dili və ədəbiyyat dərslərində şagirdlərin nitq bacarıqlarının inkişafında fəal təlim metodlarının gücünü araşdırılır. Bu metodlar ənənəvi mühazirələrdən uzaqlaşaraq, şagirdləri fəal iştirak etməyə dəvət etməklə yanaşı, onların fikirlərini sərbəst ifadə etmək, müstəqil düşünmək və sosial bacarıqlar üçün imkanlarını genişləndirir.

Qrup işi, rol oyunları və müzakirələr kimi fəal öyrənmə strategiyaları şagirdlər arasında əməkdaşlığı gücləndirir və onların emosional ifadə qabiliyyətlərini inkişaf etdirir. Məsələn, şagirdlərin hissləri canlandırdığı səhnəciklər təqdim etməsi onların nitqini zənginləşdirir. Eyni zamanda, bu yanaşmalar şagirdlərin özünəinamını artırır və sinifdə daha fəal iştirakını təmin edir.

Məqalədə vurğulanır ki, fəal təlim metodlarının tətbiqi yalnız şagirdlərin nitq bacarıqlarını inkişaf etdirmir, həm də onların sosial və akademik nailiyyətlərinə töhfə verir. Müasir təhsil sistemlərinin tələblərinə uyğun olan bu metodlar, güclü bacarıqlara malik və fikirlərini səmərəli ifadə edə bilən gələcək şəxslərin formalaşmasına yönəlib.

***Açar sözlər:*** *nitq mədəniyyəti, fəal təlim metodları, şagird inkişafı, şifahi və yazılı nitq*

**Ф.Э. АХМЕДЗАДЕ**

**ИСПОЛЬЗОВАНИЕ АКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ В РАЗВИТИИ РЕЧЕВОЙ КУЛЬТУРЫ УЧАЩИХСЯ**

**РЕЗЮМЕ**

Статья исследует силу активных методов обучения в развитии речевых навыков учеников на уроках азербайджанского языка и литературы. Эти методы не только приглашают учеников участвовать активно, уходя от традиционных лекций, но и расширяют их возможности свободного выражения мыслей, независимого мышления и социальных навыков. Групповая работа, ролевые игры и обсуждения, как стратегии активного обучения, способствуют сотрудничеству среди учеников, увеличивая их эмоциональные выразительные способности. Например, представление сценок, в которых ученики воспроизводят эмоции, обогащает их речь. В то же время, такие подходы повышают уверенность учеников в себе и обеспечивают более активное участие в классе.

Статья подчеркивает, что применение активных методов обучения не только развивает речевые навыки учеников, но и способствует их социальным и академическим достижениям. Эти методы, отвечающие требованиям современной образовательной системы, направлены на то, чтобы воспитать будущих людей, обладающих высокими навыками и способных хорошо выражать свои мысли.

***Ключевые слова:*** *культура речи, активные методы обучения, развитие студентов, устная и письменная речь*

**F.E.AHMADZADA**

## THE USE OF ACTIVE TEACHING METHODS IN THE DEVELOPMENT OF STUDENTS' SPEECH CULTURE

## SUMMARY

The article explores the power of active teaching methods in developing students' speech skills in Azerbaijani language and literature classes. These methods not only invite students to participate actively, moving away from traditional lectures, but also expand their opportunities for free expression of thoughts, independent thinking, and social skills.

Group work, role-playing, and discussions as active learning strategies foster collaboration among students, enhancing their emotional expressive abilities. For example, presenting skits where students enact emotions enriches their speech. At the same time, these approaches boost students' self-confidence and ensure more active participation in the classroom.

The article emphasizes that the application of active teaching methods not only develops students' speech skills but also contributes to their social and academic achievements. These methods, aligned with the demands of modern education systems, aim to cultivate future individuals who possess strong skills and are capable of expressing their thoughts effectively.

***Key words:*** *speech culture, active learning methods, student development, oral and written speech*

**Rəyçi: f.ü.e.d., dos., Əzizağa Nəcəfov**